Birləşmə **32** inisiator iştirakında akrilonitrillə modifikasiya edilmiş və nəticədə alınan məhsul **34** natrium hidroksidlə hidroliz edilərək tərkibində karboksil qrupları saxlayan polimer **35** alınmışdır. Birləşmə **32**-nin İQ-spektrini (**34**) ilə müqaisə etdikdə **34** polimerinin spektrində nitril qrupunun (2240 sm^{-1}) udulma zolağı müşahidə olunur.

Hidroliz məhsulunun (**35**) termiki xassələri öyrənilmişdir. Termiki tədqiqatların nəticələrindən göründüyü kimi (Şəkil 2), polibenzoksazin **35**-in kütlə itkisinin temperaturu ~410°C-dən başlayır.



Şəkil 2. Tikili quruluşlu polimerin (35) termoqravimetrik və diferensial termiki analizinin nəticələri

Statik şəraitdə (temperatur 25°C, suda uranil ionlarının ilkin qatılığı 134,5 mq/l, saxlama müddəti 24 saat) mühitin pH-nın uranil ionlarının sorbsiya dərəcəsinə və **35** modifikatının sorbsiya qabiliyyətinə təsiri öyrənilmişdir. Sorbsiya tədqiqatları Rəqəmsal inkişaf və nəqliyyat Nazirliyi Milli Nüvə tədqiqatları mərkəzində aparılmışdır. Şəkil 3-dən göründüyü kimi, uranil ionlarının sulu sistemlərdən maksimal sorbsiya dərəcəsi (92,6%) (R) pH 7-də baş verir. Bu halda sorbsiya tutumu (q) ~207,5 mq/q təşkil edir.



Şəkil 3. Uranil ionlarının sorbsiya dərəcəsinin (R) və sorbentin (35) sorbsiya tutumunun (q) məhlulun pH-dan asılılığı

Polibenzoksazin **35**-in sorbsiya qabiliyyəti sorbsiyadan əvvəl və sonra İQ spektrlərinin nəticələri ilə təsdiqlənmişdir. Spektrdə karbonil (1776 sm^{-1}) və OH qruplarının udulma zolaqları aydın olaraq müşahidə olunur.

Polibenzoksazin **35**-in sorbsiya müddətinin uranil ionlarının sorbsiya dərəcəsinə təsiri öyrənilmişdir. Uranil ionlarının maksimum sorbsiyası 1440 dəqiqə (24 saat) ərzində əldə edilir. Bu halda sorbsiya dərəcəsi 92,6%, q - 207,5 mq/q təşkil edir.

Qeyd etmək lazımdır ki, tərkibində nitril qrupu olan polibenzoksazin **34**-ün sorbsiya xassələri öyrənilərkən pH = 7-də uranil ionlarının sorbsiya dərəcəsi 69,4%, CEC ~ 156,8 mq/q təşkil etmişdir. Nisbətən aşağı sorbsiya xassələri **34**-cü sopolimerdə nitril qrupunun hidroliz prosesinin vacibliyini təsdiq edən karboksil qruplarının olmaması ilə izah oluna bilər.

Lökbatan (Qaradağ r-nu) (260-cı quyu) (A) və Bibi-Heybət (Səbail r.) (748) (B) neft yataqlarının lay sularından mikroelementlərin tutulması ilə əlaqədar da tədqiqat işləri aparılmışdır. İlk növbədə mikroelementlər ABŞ-ın Agilent şirkətinin istehsalı olan ICP MS 7700e aparatından istifadə edilməklə alovla ionlaşma üsulu ilə təyin edilmişdir.

Müqayisəli tədqiqatların nəticələrindən göründüyü kimi (cədvəl 1) sorbent kimi istifadə edilən modifikasiya edilmiş oliqomerin quruluşu neft lay suyundan mikroelementlərin sorbsiyası prosesinə əhəmiyyətli təsir göstərir.

Cədvəl 1

Sorbent 35-in A və B neft lay sularından mikroelementlərin sorbsiyasının tədqiqinin nəticələri

Lay suyunda olan mikroelementlər	Lay suyu A-dan mikroelementlərin sorbsiya dərəcəsi, %	Lay suyu B-dən mikroelementlərin sorbsiya dərəcəsi, %
K	96.6	~99.9
Na	~100	~100
Ca	99.0	~99.2
Ba	97.6	96.5
Zn	100	~100
Cd	-	94.6
Cu	100	100
Hg	99.7	100
Fe	95.5	96.0
Cr	100	100
Mn	100	100
As	100	98.9
Se	99.0	99.1
Ni	-	90.0

Cədvəl 1-dən göründüyü kimi, A lay suyunda Na, Zn, Cu, Hg, Cr, Mn və As üçün 100% sorbsiya əldə edilir. K, Ca, Ba, Fe və Se üçün sorbent **35** ilə sorbsiya dərəcəsi 100%-dən (96,6-99,7%) bir qədər aşağıdır. Oxşar nəticələr B neft lay suyunda da əldə edilmişdir.

2-Allilfenol, formaldehid və etilendiamin əsasında 33 sooliqomerinin alınması, çevrilmələri və tədqiqi

İQ spektrlərin təhlilinin nəticələri göstərdi ki, reaksiyada formaldehidin kifayət qədər (4 mol) miqdarına baxmayaraq, xətti quruluşlu sooliqomer **33** əmələ gəlir, yəni bu halda elektrofil əvəzolunma əsasən 2-allilfenolun orto-vəziyyətində baş verir. Bunu İQ-spektrdə üçəvəzli aromatik halqanın C-H-nın deformasiya rəqslərinin udulma zolaqlarının (749 sm^{-1}) olması sübut edir.

Sooliqomer **33**-ün molekul çəkisi xromatoqrafik üsulla müəyyən edilmişdir.

Sooligomer **33**-ün termiki xassələrinin tədqiqinin nəticələrini təsdiqləmək üçün aşağıdakı sxemə uyğun olaraq onun 280°C temperaturda öz-özünə tikilməsi aparılmışdır:



Sxemdən göründüyü kimi, sintez olunmuş tikili quruluşlu polimer **33a** tərkibində ikiqat rabitə saxlamır. Birləşmə **33a**-da ikiqat rabitənin olmaması İQ spektrlərdən alınan nəticələr ilə təsdiqlənir.

Yuxarıdakı sxemdə göstərildiyi kimi, sooliqomer **33**-ün akrilonitrillə modifikasiyası 2% inisiator (sooliqomer və akrilonitrilin hesablanmış miqdarlarının cəminə əsasən) - benzoil peroksidin (BPO) iştirakı ilə, 80°C temperaturda, 10 saat müddətdə aparılmışdır. 94% çıxımla əldə edilən tikili quruluşlu polimer 36 həlledicilərdə həll olmur və sarı rəngdədir. Akrilonitrillə modifikasiya olunmuş sooliqomerin (**36**) hidrolizi natrium hidroksidinin 10%-li sulu məhlulu iştirakı ilə 10 saat müddətində aparılmışdır.

Şəkil 4-dən göründüyü kimi, uranil ionlarının (R) sulu mühitdən maksimal sorbsiyası (90,8%) pH 7-də əldə edilir. Bu halda sorbent **37**-nin sorbsiya tutumu (q) ~204 mq/q təşkil edir.



Şəkil 4. Uranil ionlarının sorbsiya dərəcəsinin (R) və sorbent 37-nin sorbsiya tutumunun (q) məhlulun pH-dan asılılığı

Sorbent **37**-nin sorbsiya xassələri həmçinin İQ spektrlərinin (Şəkil 5), EDS (Şəkil 6) və skan edici elektron mikroskopiyasının (SEM) nəticələri (Şəkil 7) ilə də təsdiqlənir. Şəkil 6 və 7-dən göründüyü kimi, polimer **37**-nin element tərkibi, həmçinin sorbsiya edilmiş uranil ionları aydın şəkildə aşkar edilmişdir. Alınmış nəticələr polimer **37**-nin uranın sorbsiyasının baş verdiyini bir daha təsdiq edir. Bundan əlavə, Şəkil 7 (1-4)-də uran siqnallarının aydın aşkar edildiyi uranil ionlarının sorbsiyasından sonra sorbent **37** qranulunun vahid paylanması göstərilir (Şəkil 7 (4)). Alınan nəticələr sorbsiya prosesinin həm funksional qruplar, həm də həcmdə (qranullarda) baş verməsini göstərir.



Şəkil 5. Sorbsiyadan sonra 37-ci sopolimerin İQ spektri



Şəkil 6. Sorbent 37-nin elektron spektri



Şəkil 7. Sorbsiyadan sonra polimer 37 nümunəsinin SEM görüntüləri: 1 – polimer nümunəsinin 37 mikroskop altında şəkli, 2 – nümunə 37-də karbonun olması, 3 – 37-də oksigenin olması, 4 – 37-də uranın olması

Sorbent **37**-nin regenerasiyasının mümkünlüyünü öyrənmək üçün nitrat və xlorid turşularının məhlulları ilə uranil ionlarının (100 mq/q) desorbsiyası tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, hər iki turşunun qatılığı artdıqca uranın sorbentdən desorbsiyası da artır. Maksimum desorbsiya mineral turşuların 0,5 M-ə bərabər qatılıqda baş verir. Müəyyən edilmişdir ki, uranil ionlarının nitrat turşusu ilə

desorbsiyası zamanı desorbsiya dərəcəsi 90,3%, xlorid turşusu ilə desorbsiya zamanı isə 91,2% təşkil edir.

Müqayisə üçün, etilendiamin və formaldehidlə modifikasiya edilmiş 4-izopropenilfenol və malein anhidrid əsasında sooliqomerin sorbsiya tədqiqatları da aparılmış və onun uranil ionlarının və ağır metalların sorbsiyasının effektivliyi aşkar edilmişdir.

Beləliklə, 2-allil- və 4-izopropenilfenol, polibenzoksazinlər və onların modifikasiya edilmiş törəmələri əsasında alınan oliqomerlər kifayət qədər yüksək termiki davamlılığa, modifikasiya olunmuş törəmələri isədəyişdirilmiş törəmələr isə sulu sistemlərdən uranil ionlarının tutulması, eləcə də Azərbaycanın neft mədənlərindən ağır metalların çıxarılması üçün kifayət qədər yüksək sorbsiya xassələrinə malikdirlər.

2-Allil-, 2-propenil-, 4-izopropenilfenolların və alkenil əvəzli 1,3-benzoksazinlərin propargil törəmələrinin sintezi

Allil- və propenilfenolların, həmçinin alkenil əvəzli 1,3-benzoksazinlərin propargil törəmələrinin sintezi, onların inhibitor, biosid və digər xassələrini müqayisə etmək və müəyyən etmək məqsədilə propargil bromidin yuxarıda qeyd olunan birləşmələrlə reaksiyaları aparılmışdır.

Alkenilfenollarının propargil efirlərinin alınması propargil bromid ilə 80-85°C temperaturda, izopropil spirti mühitində KOH-nin spirtli (izopropil spirti) məhlulu iştirakı ilə 4 saat müddətdə reaksiyası aparılmışdır:



71-75

R = -CH=CH-CH_3, R_1=H (**71**)
R = -CH=CH-CH_3, R_1=CH_3 (**72**)
R = -CH_2-CH=CH_2, R_1=H (**73**)
R = -CH_2-CH=CH_2, R_1=CH_3 (**74**)
R = H, R_1 = CH_3-C(|)=CH_2 (**75**)

Alınan məhsullar 84-96% çıxımla tünd sarıdan tünd qəhvəyi rəngə qədər dəyişən özlülü birləşmələrdir.

71-75 birləşmələrinin ^{1}H NMR spektrlərindən CH≡-ın protonlarının siqnalları 2,34-2,8 ppm-də tripletlər şəklində, CH_2 protonlarının siqnalları singlet şəklində 3,9-4,87 ppm-də aydın şəkildə

aşkar edilir. Göstərilən siqnallar birləşmələrin quruluşundan asılı olaraq dəyişir. Bu siqnallar alkenilfenolların və onların törəmələrinin propargil efirlərinin əmələ gəlməsini tamamilə təsdiqləyir.

Suda həll olunan ammonium duzlarının (**75-83**) sintezi benzol mühitində 45-50°C temperaturda 3 saat müddətdə substrat:propargil bromid (və ya allil bromid) 1:1,2 mol nisbətində aşağıdakı sxemlərə uyğun olaraq aparılmışdır:



76-81 58-74%

R = -CH_2-CH=CH_2, R_1 = C_3H_7 (**76**); R = -CH_2-CH=CH_2, R_1 = C_6H_{13} (**77**);
R = -CH_2-CH=CH_2, R_1 = C_6H_5 (**78**); R = -CH_2-CH=CH_2, R_1 = -CH_2-C_6H_4 (**79**);
R = -CH_2-CH=CH_2, R_1 = C_6H_4-Br (**80**); R = -CH=CH-CH_3, R_1 = C_6H_5 (**81**)



82 57%



83 80%

84 75%

Maksimal çıxıma 2-propenilfenolun morfolinometil törəməsini (**2**) substrat kimi istifadə etməklə nail olmaq mümkündür. Burada **83** və **84** birləşmələrinin çıxımları uyğun olaraq 80 və 75% təşkil edir.

Spektral nəticələr göstərmişdir ki, propargil və allilləşdirilmiş duzlar alındıqda 1,3-oksazin halqası saxlanılır. Məsələn, **81**-ci birləşmədə oksazin halqasında CH_2 qruplarının protonlarının siqnalları 4,6 və 5,4 ppm-də aydın şəkildə aşkar edilir. Sintez edilmiş

birləşmələrdə propargil və allil fraqmentlərinin protonları da aydın görünür.

Beləliklə, alkenilfenollar və onların müxtəlif quruluşlu törəmələri, həmçinin allil və propenil əvəzli 1,3-benzoksazinlər və 2-propenilfenolun morfolinometil törəməsi əsasında tərkibində C=C, C≡C və digər funksional qruplar saxlayan suda həll olan ammonium duzları sintez edilmişdir. Sintez edilmiş polifunksional birləşmələrin praktiki tətbiqi yolları öyrənilmiş və quruluşlarından asılı olaraq onların istismar xassələrinin korrelyasiyası verilmişdir.

2-Allil- və 2-propenilfenol törəmələrinin, 1,3-benzoksazinlərin hidrogen sulfidlə doydurulmuş su-duz-karbohidrogen mühitində korroziya inhibitorları kimi tədqiqi

Sintez edilmiş heteroatom saxlayan funksional əvəzli birləşmələrin korroziyaya qarşı xassələrini müəyyən etmək üçün müxtəlif turşuların (H_2SO_4, H_2S və s.) iştirakı ilə su-duz-karbohidrogen sistemlərində onların inhibitor xassələrinin sistematik tədqiqi aparılmış və birləşmənin koroziyaya qarşı xassələri ilə quruluşları arasındakı korrelyasiya müəyyən edilmişdir.

Korroziyaya qarşı tədqiqatlar hidrogen sulfidlə doydurulmuş su-duz-kerosin mühitində, sulfat turşusu məhlulunda, o cümlədən hidrogen sulfid və karbon qazı ilə doymuş lay sularında aparılmışdır və tədqiq olunan məhsulların quruluşlarından, qatılıqlarından və korroziya sınaqlarının şəraitindən asılı olaraq xassələri barədə nəticə çıxarılmışdır.

Sintez edilmiş ammonium duzlarının (**67,68,83,84**) 50 və 100 mq/l qatılıqlarında korroziya sınağı hidrogen sulfidlə doydurulmuş 3% NaCl və kerosin (sulu məhlul və kerosin nisbəti 9:1 vol. ilə) mühitində aparılmışdır.

Cədvəl 2-dən göründüyü kimi, tədqiq edilmiş ammonium duzları **67, 68, 83, 84** hidrogen sulfidlə doydurulmuş su-duz-kerosin mühitində korroziyaya qarşı effektivliyə malikdir. Nəticələr göstərir ki, ən yüksək inhibitor aktivliyinə malik birləşmələr quruluşlarında aromatik halqada propenil əvəzedicisi ilə yanaşı, həmçinin morfolinometil qrupunun azot atomunda allil və propargil əvəzedicisi olan fraqmentlər olan birləşmələrdir. Müəyyən edilmişdir ki,

göstərilən birləşmələrin (**83** və **84**) 50 və 100 mq/l qatılıqlarında korroziyadan mühafizə dərəcəsi uyğun olaraq allil fraqmentli birləşmə (**83**) 89.3 və 91.9%, propargil əvəzli fenol törəməsi (**84**) ilə 93.4 və 96.9% təşkil edir.

Cədvəl 2

Hidrogen sulfidlə doydurulmuş su-duz-karbohidrogen mühitində ammonium duzlarının korroziyaya qarşı tədqiqatlarının nəticələri. Temperatur 25°C, zaman 5 saat

Birləşmələr	Qatılıq, mq/l	Korroziya sürəti, q/m^{2}s	Mühafizə dərəcəsi, %
4-(3-Allil-2-hidroksibenzil)morfolin-4-ium bromid **(67)**	50	1.3631	69.3
	100	1.1366	74.4
(E)-4-(2-Hidroksi-3-(prop-1-eni-1-il)benzil)morfolin-4-ium bromid **(68)**	50	1.1722	73.6
	100	0.5949	86.6
(E)-4-(2-Hidroksi-3-(prop-1-eni-1-il)benzil)-4-(prop-1-en-1-il)morfolin-4-ium bromid **(83)**	50	0.4751	89.3
	100	0.3596	91.9
(E)-4-(2-Hidroksi-3-(prop-1-eni-1-il)benzil)-4-(prop-1-in-1-il)morfolin-4-ium bromid **(84)**	50	0.2931	93.4
	100	0.1376	96.9
İnhibitorsuz	-	4.44	-

Cədvəl 2-dən də aydın olur ki, 2-allil- (**67**) və 2-propenil-fenolların (**68**) morfolinometil törəməsi əsasında alınan ammonium duzları da inhibitor təsir göstərir. Eyni qatılıqlarda olan **67** və **68** birləşmələri **67** üçün 69,3 və 74,4%, **68** üçün 73,6 və 86,6% mühafizə dərəcəsinə malikdir. Tədqiqatın nəticələrinə əsasən birləşmələr inhibitor xassələrinə görə aşağıdakı ardıcıllıqla düzülə bilər: **84**>**83**>**68**>**67**.

16-21 və **54-59** birləşmələrinin quruluşlarında ikiqat rabitə saxlayan fraqmentlərin, N-əvəz edilmiş funksional əvəzedicilərin, dördlü ammonium qruplarının və Br-anionların olması onları potensial korroziya inhibitorları, neft hasilatında biosidlər və s. kimi istifadə edilməsinə imkan verir.

Cədvəl 3-dən görünür ki, 50, 100 və 150 mq/l qatılıqlarda tədqiq edilmiş 1,3-benzoksazinlər **16-21** inhibitor xassələrinə malikdir. Ən yüksək inhibitor xassələrini tərkibində aromatik

əvəzedici saxlayan **57-59** birləşmələri göstərir. Burada 150 mq/l qatılıqlarda maksimum mühafizə dərəcəsi 94% təşkil edir. Onların arasında bromofenil əvəzedicisi (**21**) olan birləşmə ən yüksək qorunma dərəcəsinə malikdir. Alkil əvəzediciləri saxlayan 1,3-benzoksazinlər arasında tərkibində oktil əvəzedicisi olan birləşmə 18 ən yüksək mühafizə dərəcəsinə malikdir (150 mq/l qatılıqda mühafizə dərəcəsi 82,8%).

Cədvəl 3

H_2S ilə doydurulmuş su-duz-karbohidrogen mühitində 16-21 birləşmələrin korroziyaya qarşı tədqiqatlarının nəticələri

№	Birləşmələrin formulları	Qatılı q, mq/l	K, q/m^{2}s	Z, %
16		100 150	2.1720 1.9802	51.3 55.6
17		100 150	1.6368 0.8940	63.3 79.9
18		100 150	1.5119 0.7651	66.1 82.8
19		50 100 150	1.5592 0.7209 0.3897	65.0 83.8 91.3
20		50 100 150	0.8295 0.4906 0.3129	81.4 89.0 93.0
21		50 100 150	0.5352 0.4460 0.2480	88.0 90.0 94.4
		150	2.2166	50.3
	İnhibitorsuz		4.46	

Tədqiq olunan **16-21** birləşmələrinin koroziyaya qarşı xassələrinə allil qrupunun təsirini müəyyən etmək məqsədilə fenol, formaldehid və anilin əsasında eyni üsulla 1,3-benzoksazin sintez edilmiş, poladın hidrogen sulfid mühitində 150 mq/l qatılıqda korroziyaya qarşı inhibitor kimi tədqiq edilmişdir. Göstərilmişdir ki, 150 mq/l qatılıqda allil əvəzedicisi saxlamayan 1,3-benzoksazin 50,3% inhibitor təsirə malikdir.

Alınmış tədqiqat nəticələri korroziyaya qarşı tədqiqatlarda 1,3-benzoksazin molekulunda allil fraqmentinin əhəmiyyətini vurğulamağa imkan verir. Allil fraqmentində elektron sıxlığının olması metal səthində əlavə adsorbsiyanın baş verməsi ilə izah etmək olar.

Sintez edilmiş tərkibində aromatik əvəzedici saxlayan 1,3-benzoksazinlərin (**19-21**) yüksək inhibitor xassələrini nəzərə alaraq, onların koroziyaya qarşı xassələri nisbətən aşağı qatılıqlarda (50 mq/l) tədqiq edilmişdir (Cədvəl 3). Müəyyən edilmişdir ki, tədqiq edilmiş **19-21** birləşmələri göstərilən qatılıqlarda uyğun olaraq 65, 81 və 88% mühafizə dərəcəsinə malikdir.

Beləliklə, allil əvəzli 1,3-benzoksazinlərdə N-alkil əvəzedicisini N-aromatik əvəzedici ilə əvəz etdikdə inhibitor xassələrinin artması molekulda əlavə π-sisteminin olması ilə izah olunur və nəticədə metal səthində adsorbsiya baş verir.

Aparılan tədqiqatların davamı olaraq həm praktik, həm də nəzəri baxımdan böyük maraq kəsb edən allil əvəzli 1,3-benzoksazinlər əsasında ammonium duzları alınmışdır.

Cədvəl 4-dən göründüyü kimi, 1,3-benzoksazinlər **16-21**-dən onların ammonium duzları **54-59**-a keçdikdə, birləşmələrin inhibitor aktivliyinin yüksəlməsi müşahidə olunur.

Aparılan korroziyaya qarşı tədqiqatların nəticələrini, həmçinin tədqiq olunan birləşmələrin sorbsiya qabiliyyətini təsdiq etmək üçün Ст.3 polad səthində element analiz, skan edici elektron mikroskopiyadan (SEM) istifadə etməklə Ст.3 poladın korroziyadan əvvəl və sonra səthinin təhlili aparılmışdır.

Polad lövhələrin korroziyadan əvvəl və sonra analizinin nəticələrindən göründüyü kimi (cədvəl 5 və Şəkil 8 və 9) lövhələrin demək olar ki, tam elementar tərkibi, həmçinin onun səthində sorbsiya

olunmuş maddə (**21**) aşkar edilir. Cədvəl 5-dən görmək olar ki, Ст.3 polad səthində adsorbsiya edilmiş maddənin bütün elementləri müəyyən edilmişdir. Nəticələr (cədvəl 5) həmçinin göstərir ki, birləşmə **21** olmadıqda azot atomunun olmaması və nisbətən az miqdarda karbon və oksigen müşahidə olunur.

Cədvəl 4.

Hidrogen sulfidlə doydurulmuş su-duz-karbohidrogen (kerosin) mühitində 54-59 birləşmələrinin korroziyaya qarşı sınaqlarının nəticələri

	Birləşmələr	Qatılıq, mq/l	K, q/m^{2}s	Z, %
51		50 100	1.6234 1.2934	63.6 71.0
52		50 100	1.3826 0.8920	69.0 80.0
53		50 100	1.6769 0.7804	62.4 82.5
54		50 100	0.6289 0.2944	85.9 93.4
55		50 100	0.4460 0.2007	90.0 95.5
56		50 100	0.3523 0.1383	92.1 96.9
	İnhibitorsuz	–	4.46	–

Əldə edilən nəticələr sintez edilmiş birləşmələrin korroziyaya qarşı xassələrini, həmçinin polad lövhənin səthində adsorbsiya qabiliyyətini bir daha təsdiqləyir.

SEM nəticələrindən (Şəkil 9) göründüyü kimi, **21** inhibitorunun iştirakı olmadıqda (A), Ст.3 polad lövhəsinin səthində korroziya prosesi müşahidə olunur, burada korroziyadan sonra nümunənin hamar səthi dəyişir və çatlar əmələ gəlir. Bununla belə, birləşmə **21**-in iştirakında polad səthində adsorbsiya aşkar edilir. Əldə edilən məlumatlar **21**-ci birləşmənin inhibitor təsirini bir daha təsdiqləyir.

Cədvəl 5

21-ci birləşmənin iştirakında korroziyadan əvvəl və sonra polad Ст.3-ün səthinin element tərkibi

Element	Çəki, %	Atom, %	Element	Çəki, %	Atom, %
21-ci birləşmənin iştirakı olmadan			**21-ci birləşmənin iştirakında**		
			C K	41.63	71.07
C K	15.77	45.54	N K	1.92	2.81
N K	0.00	0.00	O K	5.84	7.49
O K	1.39	3.01	Si K	0.13	0.09
Mn K	0.46	0.29	Mn K	0.27	0.10
Fe K	82.38	51.16	Fe K	48.61	18.44
			Br K	1.60	1.28
Yekun	100.00		Yekun	100.00	



Şəkil 8. 21-ci birləşmənin iştirakı olmadan (A) və iştirakında (B) korroziya prosesindən sonra lövhə səthinin elektron spektri

A) 

B) 

Şəkil 9. 21-ci birləşmənin iştirakı ilə korroziyadan əvvəl (A) və (B) sonra polad lövhənin səthinin SEM şəkilləri

59-cu birləşmənin iştirakı ilə korroziya prosesindən sonra polad lövhənin səthi analoji şəkildə təhlil edilmişdir. Təhlilin nəticələri Şəkil 10 və 11-də göstərilmişdir.



Şəkil 10. 59-cu birləşmənin iştirakı ilə korroziyadan sonra polad lövhənin səthinin SEM təsvirləri



Şəkil 11. 59-un iştirakı ilə korroziyadan sonra polad lövhənin səthinin elektron spektri

Nəticələrdən göründüyü kimi (Şəkil 10 və 11), **59**-cu birləşmənin iştirakı ilə korroziya prosesində Ст.3 polad lövhəsinin səthində adsorbsiya baş verir.

Ст.3 poladın korroziyasına qarşı inhibitor kimi 2-propenilfenol, formaldehid və metilaminin kondensləşmə məhsulları 25°C temperaturda və 5 saat müddətində hidrogen sulfidlə doydurulmuş su-duz karbohidrogen mühitində 50 və 100 mq/l qatılıqlarda tədqiq edilmişdir.

Müəyyən edilmişdir ki, tədqiq olunan 1,3-benzoksazinlər (**22,60**), aminometil törəmələri (**3,69**) və polibenzoksazinin ammonium duzu (**70**) 50 və 100 mq/l qatılıqlarda inhibitor xassələrə malikdir. **60, 69** və **70** birləşmələri ən yüksək inhibitor xassəyə malikdir. Bu, yəqin ki, onların suda həll olması, həmçinin ammonium fraqmentinin və brom anionunun olması ilə bağlıdır. Bu, yəqin ki, həm də polad Ст.3 səthində yüksək sorbsiya xassələri ilə əlaqədardır.

Cədvəl 6

71-75 birləşmələrinin hidrogen sulfidlə doydurulmuş su-duz-kerosin mühitində korroziyaya qarşı sınaqlarının nəticələri

Birləşmə	qatılıq, mq/l	25^0C		40^0C	
		Korroziya sürəti, q/m^{2}saat	Mühafizə dərəcəsi, %	Korroziya sürəti, q/m^{2}saat	Mühafizə dərəcəsi, %
(E)-1-(Prop-1-en-1-il)-2-(prop-2-in-1-iloksi)benzol (**71**)	50 100	0.6467 0.5352	85.5 88.0	1.014 0.8467	80.0 83.3
(E)-4-Metil-2-(prop-1-en-1-il)-2-(prop-2-in-1-iloksi)benzol (**72**)	50 100	0.7983 0.6021	82.1 86.5	1.3486 0.9937	73.4 80.4
1-Allil-2-(prop-2-in-1-iloksi)benzol (**73**)	50 100	0.8831 0.6868	80.2 84.6	1.4703 1.0495	71.0 79.3
1-Allil-2-(prop-2-in-1-iloksi)benzol (**74**)	50 100	0.9812 0.8028	78.0 82.0	1.5717 1.2574	69.0 75.2
1-(Prop-1-en-2-il)-4-(prop-2-in-1-iloksi)benzol (**75**)	50 100	0.5352 0.4371	88.0 90.2	0.9177 0.6946	81.9 86.3
(prop-2-in-1-iloksi)benzol (müqaisə üçün)	50 100	1.2666 1.4183	68.2 71.6	2.8189 2.0787	44.4 59.0
İnhibitorsuz		4.46	-	5.07	-

Cədvəl 6 və 7 quruluşlarında həm C=C, həm də -C≡C rabitəli fraqmentlər saxlayan allil və propenilfenolların funksional əvəzli

törəmələrinin (**71-75**) korroziyaya qarşı sınaqlarının nəticələri verilmişdir.

Korroziyaya qarşı sınaqların nəticələrindən (cədvəl 6 və 7) göründüyü kimi, tədqiq edilmiş birləşmələr (**71-75**) 3% NaCl, karbohidrogen (kerosin) və hidrogen sulfid (500 mq/l) saxlayan model sulu sistemlərdə polad Ст.3-ün korroziyaya qarşı xassələrə malikdir. Bu birləşmələrin tərkibində aromatik halqada əvəz edilmiş π-elektronları (C=C və C≡C) olan fraqmentlər saxlayır (Cədvəl 6).

Cədvəl 7.

Hidrogen sulfidlə doydurulmuş su-duz-kerosin mühitində 76-82 birləşmələrinin korroziyaya qarşı tədqiqinin nəticələri

Birləşmələr	Qatılıq, мг/л	Korroziya sürəti, q/m^{2}saat	Mühafizə dərəcəsi, %
8-Allil-3-(prop-2-in-1-il)-3-propil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**76**)	50	0.6958	84.4
8-Allil-3-heksil-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**77**)	50	0.4460	90,0
8-Allil-3-fenil-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**78**)	50	0.8028	82,4
8-Allil-3-benzil-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**79**)	50	0.4192	90,6
8-Allil-3-(4-bromofenil)-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**80**)	50	0.2364	97,6
(E)-3-Fenil-8-(prop-1-eн-1-il)-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**81**)	50	0.6422	85,6
(E)-3-Oktil-8-(prop-1-en-1-il)-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**82**)	50	0.3568	92,0
İnhibitorsuz	-	4,46	-

İkiqat rabitənin inhibitor təsirini müəyyən etmək məqsədilə eyni şəraitdə və qatılıqlarda müqayisə üçün eyni üsulla sintez edilmiş fenolun propargil efirinin də iştirakı ilə korroziyaya qarşı tədqiqatlar aparılmışdır. Müəyyən edilmişdir ki, alkenil əvəzedicisi olmadıqda,

100 mq/l qatılıqda mühafizə dərəcəsi kəskin şəkildə 71%-ə qədər azalmışdır.

71-75 birləşmələrinin koroziyaya qarşı xassələrinin müqayisəli tədqiqi üçün eyni şəraitdə **76-82** birləşmələri - dördlü ammonium duzları, yəni 50 mq/l qatılıqlarda 1,3-benzoksazinin propargil törəmələrinin korroziyaya qarşı sınaqları aparılmışdır. Tədqiqatın nəticələri Cədvəl 7-də verilmişdir.

Tədqiqatların nəticələrindən göründüyü kimi, tərkibində 1,3-benzoksazin və alkenil fraqmentləri, həmçinin N-propargil əvəzedicisi və brom anionu saxlayan ammonium birləşmələri **76-82** aqressiv hidrogen sulfid su-duz-kerosin mühitində yüksək koroziyaya qarşı xassələrə malikdir. Alınan müsbət nəticələri onların quruluşlarında ikiqat (C=C) və üçqat (C≡C) rabitələrin, dördlü azot atomunun, brom anionunun və aromatik halqanın olması ilə izah etmək olar.

Müəyyən edilmişdir ki, N-benzil (**79**, 90,6%), N-bromofenil (**80**, 97,5%), N-heksil (**77,** 90%) və N-oktil (**82**, 92%) əvəzediciləri saxlayan ammonium duzları ən yüksək mühafizə dərəcəsinə malikdir.

Göründüyü kimi, onların arasında mühafizə dərəcəsinin ən yüksək qiyməti N-bromfenil əvəzedicisi (97,6%) olan birləşmədə (**80**) aşkar olunmuşdur. Bu N-bromfenil fraqmentində brom atomunun əlavə olaraq olması ilə izah edilə bilər.

Digər tərəfdən, **76-82** birləşmələrində aşağı qatılıqlarda (50 mq/l) nisbətən yüksək koroziyaya qarşı xassələrinin müəyyən olunması propargil fraqmentinin mövcudluğunun vacibliyini bir daha təsdiqləyir.

Alınan nəticələrin doğruluğu SEM metodu ilə də təsdiqlənmişdir.

Lay sularında 1,3-benzoksazin və 2-propenilfenol törəmələri əsasında sintez edilmiş ammonium birləşmələrinin korroziyaya qarşı xassələrinin tədqiqi

SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” İnstitutunda hidrogen sulfid və karbon qazı ilə doydurulmuş lay sularında 200 mq/dm^3 (200 mq/l) qatılıqda ammonium duzlarının korroziya tədqiqatları aparılmışdır. Tədqiqatlar otaq temperaturunda və 24 saat müddətdə Ст.20 polad üzərində aparılmışdır.

Müəyyən edilmişdir ki, 24 saatlıq sınaq müddətində birləşmələrin təbiətindən asılı olaraq mühafizə dərəcəsi 59,0-96,8% göstərir (Cədvəl 8).

Cədvəl 8

Lay sularında ammonium duzlarının korroziyaya qarşı tədqiqatlarının nəticələri

Birləşmələr	Çəki itkisi, 1	Korroziya sürəti, q/m^{2}saat	Mühafizə dərəcəsi, %
İnhibitorsuz	0.1826	1.3585	-
8-Allil-3-propil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**54**)	0.0771	0.4280	68.5
8-Allil-3-heksil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**55**)	0.0758	0.4211	69.0
8-Allil-3-oktil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**56**)	0.0734	0.4076	70.0
8-Allil-3-fenil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**57**)	0.0632	0.4702	65.4
8-Allil-3-benzil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**58**)	0.0636	0.3532	74.6
8-Allil-3-(4-bromofenil)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**59**)	0.0384	0.2133	84.3
(E)-8-(Prop-1-en-1-il)-3-propil-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**61**)	0.0444	0.3301	75.7
(E)-3-Heksil-8-(prop-1-en-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**62**)	0.0190	0.1412	89.6
(E)-3-Oktil-8-(prop-1-en-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**63**)	0.1443	0.5570	59.0
(E)-3-Fenil-8-(prop-1-en-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**64**)	0.0132	0.0978	92.8
(E)-3-Benzil-8-(prop-1-en-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**65**)	0.010	0.0747	94.5
8-Allil-3-heksil-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**77**)	0.0826	0.4591	66.2
8-Allil-3-fenil-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**78**)	0.0782	0.4347	68.0
8-Allil-3-benzil-3-(prop-2-in-1-il)-3,4-dihidro-2H-benzo[e][1,3]oksazin-3-ium bromid (**79**)	0.0269	0.1494	89.0
(E)-4-(2-Hidroksi-3-(prop-1-en-1-il)benzil)-4-(prop-2-in-1-il)morfolin-4-ium bromid (**84**)	0.0078	0.0435	96.8

Benzoksazinium birləşmələri arasında ən yüksək mühafizə dərəcəsinə (90%-dən çox) N-fenil (**64**), N-benzil (**65**) və propenil əvəzediciləri olan birləşmələr malikdir, burada onların mühafizə dərəcəsi uyğun olaraq 92,8 və 94,5% təşkil edir. Propenil əvəzli 1,3-benzoksazinium bromidlərdə N-alkil əvəzedicilərinin (propil, heksil və oktil) olması mühafizə dərəcəsini nisbətən aşağı salır (59,0-89,6%). Bu halda N-heksil əvəzedicisi olan birləşmə nisbətən yüksək korroziyaya qarşı xassəsəyə malikdir (89,6%).

1,3-Benzoksazinin tərkibində aromatik halqa ilə qoşulmuş ikiqat rabitə saxlayan əvəzedicilərin, habelə N-əvəz edilmiş propargil fraqmentinin olması səbəbindən, inhibitor xassələri hidrobromidlərlə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşır, yəni propargil fraqmentinin C≡C rabitəsinin olması ilə ammonium birləşmələrində (**77-79, 84**) inhibitor xassələrini daha da artır.

Tərkibində fenol hidroksili, morfolinium, propargil fraqmentləri və brom anionu saxlayan birləşmə 84 də eyni şəraitdə tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, birləşmə 84-də fenolun OH qrupunun olması ilə koroziyaya qarşı aktivlik artır və 96,8% təşkil edir.

2-Allil- və 2-propenilfenolların morfolinometil törəmələrinin ammonium duzlarının sulfat turşusu mühitində korroziyaya qarşı xassələrinin tədqiqi

Tədqiqatın məqsədi 2-allil- və 2-propenil-6-morfolinometilfenolların HBr, allil bromid və propargil bromidlə reaksiyasından alınan suda həll olan ammonium duzlarının 10, 20 və 50 mq/l qatılıqlarda 0.5 N H_2SO_4 mühitində 3 saat müddətində polad Ст.3-ün korroziyasına qarşı inhibitor kimi müqayisəli tədqiqi aparılmışdır.

Müəyyən edilmişdir ki, tədqiq edilmiş bütün ammonium duzları, xüsusilə 2-propenilfenol əsasında alınan ammonium duzları (**68,83,84**) koroziyaya qarşı aktivliyə malikdir. Onların mühafizə dərəcələri qatılıqlarından asılı olaraq 80,3-dən 97,8%-ə qədər dəyişir. 2-Propenilfenolun (**68,83,84**) törəmələri arasında N-allil əvəzedicisi olan ammonium birləşmələri (90%) ən yüksək korroziyaya qarşı xassələrə malikdir. Alınmış nəticələr əsasında ammonium

birləşmələrində N-allil və N-propargil fraqmentlərinin olmasının vacibliyi bir daha təsdiqlənmişdir. Alınan nəticələr həmçinin aromatik halqada 2-propenil əvəzedicisinin olmasının müqayisəli əhəmiyyətini də göstərir.

Neftçıxarma sənayesində alkenilfenol törəmələri əsasında ammonium birləşmələrinin biosid xassələrinin öyrənilməsi

Funksional əvəzli 1,3-benzoksazinlərin ammonium duzlarının, Mannix əsaslarının müxtəlif törəmələrinin və tərkibində 1,3-benzoksazin halqasında allil, propenil və digər qruplar, həcmli kation və Br anionu saxlayan törəmələrin neftin hasilatı zamanı biosid xassələrinin tədqiqinin nəticələri verilmişdir.

Bakterisid tədqiqatlar SOCAR-ın Neft-qaz Elmi-Tədqiqat Layihə İnstitutunda aparılmışdır.

Cədvəl 9

67,68,83,84-ci birləşmələrin 200 mq/l qatılıqda biosid xassələrinin tədqiqinin nəticələri

Birləşmələr	N, SRB hüceyrələri/ml	S,%
Distillə suyu	10^8	-
67	10^4	50.0
68	10^1	90.0
83	10^1	89.5
84	10^0	100.0

Cədvəl 9-dan göründüyü kimi, 200 mq/l qatılıqda tədqiq edilmiş ammonium birləşmələri SRB-yə qarşı bakterisid təsir göstərir. Nəticələr göstərmişdir ki, **84** - (E)-4-(2-Hidroksi-3-(prop-1-en-1-il)benzil)-4-(prop-2-in-1-il)morfolin-4-ium bromid, tərkibində aromatik halqa ilə qoşulmuş vəziyyətdə olan propenil, N-əvəz edilmiş propargil və digər fraqmentlər saxlayır və SRB-nin inkişafının qarşısını 100% alır. Propenil fraqmenti saxlayan ammonium birləşmələrinin allil fraqmenti ilə müqayisədə yüksək bakterisid xassələrə malik olduğu aşkar olunmuşdur.

200 mq/l qatılıqda **54-59** birləşmələri (cədvəl 10) SRB-nin inkişafının qarşısının alınmasında bakterisid təsirə malikdirlər.

Alınan tədqiqatların nəticələrindən (cədvəl 10) göründüyü kimi, tərkibində brom anionundan və digər funksional qruplardan

əlavə bromofenil əvəzedicisi saxlayan **59**-cu birləşmə SRB-nin artımının maksimal dərəcədə qarşısını alır (100%).

Cədvəl 10.

54-59 birləşmələrinin bakterisid tədqiqatlarının nəticələri (200 mq/l)

Birləşmələr	N, SRB hüceyrələri/ml	S,%
Distillə suyu	10^8	-
54	10^1	87.5
55	10^2	75.0
56	10^5	37.5
57	10^4	50.0
58	10^1	87.5
59	10^0	100.0

Tədqiqatlardan alınan nəticələrdən (cədvəl 10) aydın olur ki, 54, 58 və 59 birləşmələri nisbətən yüksək aktivliyə malikdir. Buna görə də qarşıya qoyulan məqsəd bu birləşmələri daha aşağı qatılıqlarda (50, 100 və 150 mq/l) öyrənmək olmuşdur. Tədqiqatın nəticələri tədqiq olunan birləşmələrdən neftin hasilatı sənayesində tətbiq oluna bilən effektiv reagentlər kimi istifadə etməyə imkan verir.

N-benzil (**79**) və N-bromofenil (**80**) əvəzediciləri saxlayan dördlü azot atomunda propargil əvəzedicisi saxlayan **79** və **80** birləşmələrində də yüksək biosid xassə (SRB-nin məhvedilmə dərəcəsi ~100%) aşkar edilmişdir. Tərkibində allil və N-fenil fraqmenti saxlayan birləşmə (77) 90% məhvetmə dərəcəsinə malikdir.

Beləliklə, hərtərəfli tədqiqatların nəticələri göstərmişdir ki, tədqiq olunan 1,3-benzoksazin, aminometil və 2-allil və 2-propenilfenolların digər törəmələri həm inhibitor, həm də bakterisid xassələrə malikdir və demək olar ki, xassələrinə görə, hətta bir çox hallarda məlum olan inhibitorlar və bakterisidlərin göstəricilərindən heç də geri qalmırlar.

Sintez edilmiş birləşmələrin antioksidant xassələrinin tədqiqi

Tərkibində OH qrupu, ikiqat rabitə, benzoksazin və digər fraqmentlər saxlayan sintez edilmiş 2-allil- və 2-propenilfenollar əsasında azot saxlayan törəmələrin (yeni Mannix əsasları) antioksidant xassələri tədqiq edilmişdir.

Tədqiq olunan birləşmələrin (**3,16,18,19,20,25,26,42**) iştirakı ilə kumolun avtooksidləşməsinin kinetik əyrilərindən tapılan induksiya dövrlərinin qiymətlərinə əsasən onların yüksək antioksidant aktivliyə malik olduğu və sənayedə antioksidant kimi geniş istifadə olunan ionolu əhəmiyyətli dərəcədə üstələdiyi müəyyən edilmişdir.

Müəyyən edilmişdir ki, N-propil və N-oktil fraqmentləri olan birləşmələrin (**16,18**) antioksidant xassələri tərkibində N-fenil və N-benzil əvəzediciləri olan birləşmələrə (**19,20**) nisbətən daha yüksəkdir.

1,3-Benzoksazin molekulunda olan propenil fraqmentindəki ikiqat rabitə benzol halqasına doğru yerləşdiyinə görə (yəni aromatik halqa ilə qoşulmuş) birləşmələrin (**25** və **26**) antioksidant xassələri allil, N-propil (**16**) və N-oktil (**18**) əvəzli birləşmələrlə müqayisədə azalır.

I-12A yağında bəzi birləşmələrin özlülük-temperatur xassələrinin öyrənilməsi

33, 42, 44, 46-cı birləşmələrin termiki davamlılığını nəzərə alaraq, onların I-12A yağında tədqiqi aparılmışdır. **33, 42, 44, 46** birləşmələrinin 4 və 6% qatılıqda desilmetakrilat və ditsiklopentadienin sopolimerləri (1:1 kütlə) ilə kompozisiyada istifadə edilməsi I-12A sürtkü distillat yağının kinematik özlülüyünü 100°C temperaturda 3.8 mm^2/s-dən 8.0 mm^2/s-ə qədər artırmağa imkan verir.

Nəticədə hazırlanmış sürtkü kompozisiyalarının özlülük-temperatur xassələri yaxşılaşdırılır. Özlülük indeksi 4% qatılıqda 90-dan 100-115-ə, 6%-də isə 110-125-ə qədər artır.

Sintez edilmiş birləşmələrin antimikrob xassələrinin öyrənilməsi

Səhiyyə Nazirliyinin Sanitar-Karantin Mərkəzinin Mikrobiologiya laboratoriyasında sintez olunmuş birləşmələrin DMSO, H_2O və M-8 yağında antimikrob xassələrinin tədqiqi aparılmışdır.

Tədqiqatın məqsədi 2-allil-, 2-propenil- və 4-izopropenilfenollar əsasında sintez edilmiş heteroatom saxlayan törəmələrinin mikroblara qarşı dərman vasitələri, yağlara antimikrob aşqarlar kimi tədqiqi və onların quruluşundan asılı olaraq antimikrob

xassələrinin qanunauyğunluqlarının müəyyən edilməsi üçün elmi əsasların işlənib hazırlanması olmuşdur.

Sintez edilmiş birləşmələrin antimikrob xassələrinin tədqiqində aşağıdakı mikroorqanizmlərdən istifadə edilmişdir: *Staphylococcus aureus, Escherichia Coli, Shigella flexneri, Salmonella enterica, Pseudomonas aeruginosa, Candida albicans və Aspergillus niger*.

Cədvəl 11-dən göründüyü kimi, tədqiq edilmiş 8-allil-1,3-benzoksazinlər və onların ammonium törəmələri 15 və 30 mq/l qatılıqlarda istifadə olunan bütün mikroorqanizmlərə qarşı bakterisid və funqisid təsir göstərir. **16-19** və **54-57** birləşmələri arasında ammonium duzları **54-57** ən yüksək antimikrob aktivliyə malikdir. Belə ki, onlar 15 mq/l qatılıqda **16-19** birləşmələri ilə müqayisədə təxminən iki dəfə effektivdir.

Cədvəl 11

16-19 və 54-57 birləşmələrinin antimikrob xassələrinin nəticələri

Birləşmələr	**Qatılıq, mq/l**	**Mikroorqanizmlərin məhvedilmə diametri, mm**					
		S.aureus	***E.coli***	***S.flexneri***	***S.enterica***	***C.albicans***	***A.niger***
16	15	15	19	17	14	6	7
	30	29	39	33	26	15	15
17	15	11	24	14	12	6	5
	30	24	41	29	25	14	11
18	15	10	22	13	10	9	12
	30	26	27	22	19	17	21
19	15	13	22	10	10	4	5
	30	25	38	20	21	11	13
51	15	16	24	14	10	15	10
	30	31	42	27	21	29	23
52	15	22	28	18	15	13	12
	30	43	45	38	31	28	25
53	15	16	23	19	13	18	16
	30	31	38	32	29	33	32
54	15	19	27	20	14	12	10
	30	34	45	36	30	25	22
Amoksisilin	30	14	9	10	9	-	-
Flükonazol	30	-	-	-	-	29	22

TEM tədqiqatlarının nəticələri göstərmişdir ki, 3-heksil əvəzli 8-allil-1,3-benzoksazinium bromid (**55**) bakteriya hüceyrəsinin divarlarından keçərək öz təsirini göstərir. Şəkil 12-də birləşmə **55** və amoksisillinin iştirakı olmadan *E.coli* hüceyrəsini göstərilir. Şəkil 13 standartın (amoksisillin) iştirakı ilə *E.coli* hüceyrələrində ultrastruktur dəyişikliklərin xüsusiyyətlərini göstərir. Göründüyü kimi, *E.coli* hüceyrəsinin divarı və hüceyrə membranı (tək qara oxla göstərilir) zədələnmişdir. Bu zaman bakteriyaların inkişafı dayanır və onlar çoxalma qabiliyyətini itirirlər.

Şəkil 14 aydın şəkildə göstərir ki, bütün bakteriya hüceyrələrinin divarının həm daxili, həm də xarici təbəqələri məhv edilmişdir və *E.coli* bakteriyalarının **55**-ci birləşmənin təsirindən tam parçalanması müşahidə olunur.



Şəkil 12. Təmizlənməmiş *E.coli* bakteriyalarının TEM görüntüləri
a - ümumi görünüş, b - bakteriyaların ultrastrukturu. Boyanma: uranil asetat və Pb-sitrat. St-sitoplazma, CM-hüceyrə membranı və ya plazma membranı, CW-hüceyrə divarı, Rb-ribosom, Pe-peptidoqlükan

Cədvəl 12-dən göründüyü kimi, 35 mq/l qatılıqda tədqiq edilmiş **23,24,26,27** birləşmələri istifadə olunmuş mikroorqanizmlərə qarşı antimikrob aktivliyə malikdir. 3-Benzil əvəzedicisi olan **27**-ci birləşmə bütün mikroorqanizmlərə, xüsusən də *E.Coli*, *Candida albicans* və *Aspergillus niger*-ə qarşı antimikrob aktivliyə malikdir.



Şəkil 13. Amoksisillinin təsirindən zədələnmiş *E.coli* bakteriyalarının TEM görüntüsü



Şəkil 14. 3-Heksil-əvəzli 8-allil-1,3-benzoksazinium bromidin (55) təsiri ilə məhv edilmiş *E.coli* bakteriyalarının TEM mikroqrafiyası

Belə ki, 35 mq/l qatılıqda onların inkişafının qarşısının alınmasının diametri uyğun olaraq 28, 31 və 31 mm təşkil edir.

Cədvəl 12

23,24,26,27 birləşmələrinin antimikrob xassələrinin tədqiqinin nəticələri

Birləşmələr	Qatiliq, mq/l	Mikroorqanizmlərin məhvedilmə diametri, mm					
		S.aureus	*E.coli*	*S.flexneri*	*S.enterica*	*C.albicans*	*A.niger*
23	15	8	6	6	5	0	0
	35	12	10	11	10	4	4
24	15	6	9	11	8	0	0
	35	10	13	18	11	0	2
26	15	4	6	10	4	0	0
	35	6	10	16	8	2	3
27	5	7	6	5	4	8	6
	15	12	13	11	10	14	12
	35	21	28	20	22	31	27
Amoksisilin	35	15	10	9	9	-	-
Flükonazol	35	-	-	-	-	29	22

Cədvəl 13

M-8 yağında 16-21 birləşmələrinin antimikrob aktivliyinin tədqiqinin nəticələri

Birləşmələr	Qatılıq, mq/l	Mikroorqanizmlərin məhvedilmə diametri, mm				
		S.aureus	*E.coli*	*Pseudomonas aeruginoza*	*C.albicans*	*A.niger*
16	30	19	21	25	16	13
	50	24	26	29	18	19
17	30	12	14	11	13	12
	50	23	24	24	15	16
18	30	10	12	9	6	5
	50	19	27	26	10	9
19	30	22	25	24	16	14
	50	28	30	29	19	18
20	30	21	24	25	15	16
	50	30	32	31	20	22
21	30	20	23	24	14	13
	50	28	29	30	25	22
8-hidroksi-xinolin	50	20	24	18	+	+
M-8 yağı (əlavəsiz)	-	+	+	+	+	+

Zonal diffuziya metodunun, eləcə də durulaşdırılma üsulunun (35 mq/l, 3,5 mq/l, 0,35 mq/l və 0,035 mq/l) istifadəsi birləşmələrin antimikrob xassələrinin kompleks tədqiqatlarının nəticələrini, həmçinin tədqiq olunan birləşmələrin minimal məhvedilmə qatılıqlarını müəyyən etməyə imkan vermişdir. Belə ki, **24**-cü birləşmə üçün minimal bakterisid aktivliyi qatılığı 0,01 ml (0,35 mq/l), **26** və **23** üçün 0,001 ml (0,035 mq/l), **27** üçün minimal bakterisid aktivliyi (MBA) və minimum funqisid aktivliyi (MFA) 0,001 ml (0,035 mq/l) təşkil edir.

27-ci birləşmənin əldə edilmiş antimikrob tədqiqatlarının nəticələri də *E.coli* bakteriyalarına qarşı TEM-dən istifadə etməklə təsdiq edilmişdir.

N-aromatik əvəzli 1,3-benzoksazinlər (**20,21,28**) və onların suda həll olunan ammonium duzları (**58,59,66**) da 20, 30 və 50 mq/l qatılıqlarda *S. aureus, E. coli, C. albicans, Sh. flexneri, S. enterica* və *A. niger* mikroorqanizmlərinə qarşı antimikrob aktivliyə malikdirlər.

Birləşmə **58** *E.coli* və *Sh.flexneri* bakteriyalarına qarşı daha effektivdir, burada 50 mq/l qatılıqda göstərilən bakteriyaların məhvedilmə zonasının diametri uyğun olaraq 40 və 39 mm təşkil edir.

